***"Pandemiyanın səngiməsindən sonra ölkəmizdə qlobal miqyaslı tədbirlərin keçirilməsi uğurla davam etdirilir. Bugünlərdə Azərbaycan paytaxtında 9-cu dəfə baş tutan Qlobal Bakı Forumu bu beynəlxalq tədbirin artıq dünyada nüfuzlu bir platformaya çevridiyini təsdiq etdi. Bu dəfə müzakirəyə çıxarılan mövzular isə aktuallığı və təxirəsalınmazlığı ilə seçilirdi". Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev növbəti Bakı forumu ilə bağlı mediaya bu açıqlamasının davamında bildirib:***

***– Bakı forumuna göstərilən maraq ildən-ilə artmaqdadır, budəfəki məclisdə dünyanın 53 ölkəsindən ali və yüksək səviyyəli nümayəndə, sabiq dövlət və hökumət başçıları, beynəlxalq və qeyri-hökumət təşkilatlarının rəsmiləri iştirak edirdi. Bu, əvvəlki toplantı ilə müqayisədə kifayət qədər yüksək göstəricidir.***

# Bakı Forumu dünyanın çağdaş problemlərini gündəmə gətirdi

Dövlətimizin başçısı cənab İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə reallaşan forumun budəfəki mövzusu da çox önəmli məsələlər idi. Belə ki, hazırda dünyada bir sıra məlum ziddiyyətli proseslər gedir, onların fəsadları getdikcə artmaqdadır. Təhlükəsizlik məsələləri, ərzaq böhranı, enerji problemi bu gün dünya gündəmini zəbt edib. Belə bir məqamda bu istiqamətdə forumda aparılan müzakirələrin, fikir mübadilələrinin, qəbul olunacaq qərarların faydalı olacağı şübhəsizdir.

Açılış mərasimində çıxış edən dövlətimizin başçısı cənab İlham Əliyev Azərbaycanın regional təhlükəsizliklə bağlı yanaşmalarını aydın şəkildə bəyan etdi. Prezident bildirdi ki, ölkəmizin mövqeyi regionda sabitliyə, dayanıqlı sülh və təhlükəsizliyə əsaslanır. Bu istiqamətdə Azərbaycanın təşəbbüsləri bütün region dövlətləri, o cümlədən Ermənistan üçün də faydalıdır. Bu ölkənin uzun illər davam etmiş işğal siyasəti regionda gərginlik yaradır, təhlükəsizliyi pozur, iqtisadi əlaqələrin inkişafına əngəllər törədirdi, həmçinin beynəlxalq hüququn prinsiplərini heçə endirirdi. Bu baxımdan Ermənistanın işğal siyasətinə son qoyan Vətən müharibəsinin nəticələri onun region dövlətləri üçün də önəmini bir daha ortaya qoyur. Bu gün Azərbaycanın müəllifi olduğu reallıqlar bölgə dövlətləri arasında əməkdaşlığın dərinləşməsinə, iqtisadi əlaqələrin inkişafına zəmin yaradır.

Forumdakı proqram səciyyəli çıxışında Prezident İlham Əliyev kommunikasiyaların açılması məsələsinə də toxundu. Ölkə rəhbəri xatırlatdı ki, Ermənistan bu məsələdə üzərinə öhdəliklər götürüb, lakin 2020-ci il 10 noyabr bəyanatının imzalanmasından



bu qədər vaxt keçsə də, hələ ki, Zəngəzur dəhlizinin açılması məsələsinə tərəddüdlə yanaşır, səbəbsiz yerə prosesi ləngidir. Zəngəzur dəhlizi Ermənistanın özü üçün də, bütün region üçün də faydalı olacaq. Hamı, o cümlədən Ermənistan tərəfi də anlamalıdır ki, bu məsələ müharibənin nəticəsi olaraq ortaya çıxıb və reallaşması şübhəsizdir. Dövlətimizin başçısı bur daha vurğuladı ki, Zəngəzur dəhlizinin açılması məsələsinin ən qısa zamanda həlli gələcək regional sülhün fundamental elementlərindən biri kimi qarşıda durur.

Prezident İlham Əliyev Qlobal Bakı Forumundakı önəmli açıqlamalarının sırasında hələ də status xəyalları ilə yaşayanlara, Minsk qrupunu yenidən "diriltməyə" çalışanlara da aydın və məntiqli şəkildə bildirdi ki, Cənubi Qafqazda yaranmış yeni reallıqlar fonunda bu məsələlər tarixin arxivinə yuvarlanıb. Azərbaycan qalib və güclü dövlətdir, diktə edən tərəf də odur. Ermənistan da bunu dərk etməli, prosesi ləngitməyə çalışmamalıdır.

***Hazırladı:***
***R.TAHİR, "Xalq qəzeti"***